# Silinməz izlərin toplusu

Yazı ta qədimdən mövcud olmuşdur - radio, televizor, videoçəkiliş, telefondan da əvvəl. Bu qədim Qobustan qayaları və ya dəri, daş üzərindəki cızma-qaralar, müxtəlif fiqur şəkillərindən aydındır. Diqqət etsək görürük ki, yazılanlar, nəyinsə üzərinə qazılanlar tarixin silinməz izləridir. Söz, yazılı mənbə həmişə tarix sayılır. Qəzet də tarixin bir salnaməsidir, mətbuatın ən aktiv forması kimi illərlə yaşamış və yaşamaqdadır. Qəzet həyatın güzgüsü sayılırdı. Çünki qəzetlər doğrunu yazardı, müxtəlif janrlarda yazılsa belə, həyatı olduğu kimi əks etdirərdi. Yalan mənbələrə cox da istinad edilməzdi. Həyat, hadisələr formaca qismən dəyişsə də, mənaca eyni olardı. Bu isə bizə milli mətbuatımızın əzəli olan “Əkinçi”dən gəlmiş yazı formasında öz əksini tapmışdı.

Milli mətbuatımızın banisi, görkəmli ziyalı H. Zərdabi 1875-ci ildə “Əkinçi” qəzetinin ilk nömrəsinin işıq üzü görməsinə nail oldu. Başqa bölgələrdə də dövrün ziyalıları öz dərgisini yaratmağa başladılar.

Qəbələ tarix-diyarşünaslıq muzeyindən əldə etdiyimiz məlumata əsasən, bildiyimiz kimi, Qutqaşın dairə fəhlə, kəndli, əsgər deputatları Soveti İcraiyyə komitəsi 1920-ci il aprel ayının 28-dən 1929-cu il aprel ayının 8-nə qədər Nuxa qəzasının Qutqaşın dairəsi adlandırılmışdır.

VI Ümumazərbaycan Sovetlər Qurultayının qərarına əsasən qəza sistemi ləğv edilib mahal sisteminin təşkil edilməsilə əlaqədar olaraq Qutqaşın 1929-cu il aprel ayının 8-dən 1930-cu ilin fevral ayına qədər Zaqatala - Nuxa mahalının Qutqaşın dairəsi adlandırılmışdır. 1930-cu ilin əvvəllərində Qutqaşın dairəsi Zaqatala - Nuxa mahalından ayrılaraq Şirvan mahalının ərazisi ilə birləşdirilmiş, 1930-ci ilin avqust ayına qədər Şirvan mahalının Qutqaşın dairəsi adlanmışdır.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1930-cu il 1 avqust tarixli qərarına əsasən respublikada mahal sistemi ləğv edilərək rayonların təşkil olunması ilə əlaqədar Qutqaşın dairəsi rayon adı almışdır. Rayonlar yaradıldıqdan sonra respublikada mövcud nazirliklərin şöbələri təşkil olundu. Ayrı-ayrı rayonlarda, bölgələrdə “Əkinçi” ənənələrini davam etdirən dərgilər, mətbu orqanları yaradılırdı. 1933-cü il oktyabr ayının 15-də Qutqaşında ilk qəzet “Bolşevik mübarizi” adı ilə çıxmağa başladı.




Qutqaşın rayonunun həyatına dair materiallar qəzet yaradılanadək Nuxada (indiki Şəki) çıxan “Şəki fəhləsi” qəzetində dərc olunmuşdur.

Sonralar qəzetimiz “Mübariz” (1953 - 1962) adı ilə çap edilmişdir, 1962 - 1965-ci illərdə rayonlar birləşərkən Nuxada (indiki Şəkidə) çıxan “Lenin bayrağı”, Göyçayda nəşr olunmuş “Yeni həyat” (1963 - 1965) qəzetlərində rayonumuzun həyatı və diyarımız haqqında materiallar verilmişdir.

1966-cı ildə rayonumuzda “Qalibiyyət” adı ilə qəzet nəşri bərpa edilir.

1990-cı ilin noyabr ayının 27-dən qəzetimiz “Qəbələ” adı ilə buraxılır. Bu illər ərzində dövrün bir qrup ziyalıları bu qəzetə redaktorluq etmişdilər.

Nəriman Həsənov (1933 - 1937), Musa Nəcəfov (1937 - 1939), Əhmədpaşa Hacıyev (1939 - 1942), Umud Kərimov (1942 - 1944), Baba Qəhrəmanov (1944 - 1946), Sənan Şirinov (1946 - 1948), Ramazan İsmayılov (1948 - 1949), Baba Qəhrəmanov (1949 - 1956-cı illər, ikinci dəfə), Ramazan İsmayılov (1956 - 1962-ci illər, ikinci dəfə), Kərim Abdullayev (1962 - 1965), Ramazan İsmayılov (1965 - 1987, 3-cü dəfə), Əziz Əzizov (1987 - 1993), Tacəddin Məmmədov (1993 - 5 - 7-ci aylar), Əziz Əzizov (1993 - 1997, 2ci dəfə), Nadir Atakişiyev (1999 - 2000), Əziz Əzizov (2000 - 2001, 3-cü dəfə), Nadir Atakişiyev (2001 - 2011, 2-ci dəfə) Oqtay Məmmədov (2011 - 2016), Varis Yaqubov (2016 - 2020) olmuşdur. Azad Məmmədov isə 1920-ci ildən etibarən qəzetimizin redaktorudur.

Qəzetimizin nəşr olunduğu hər ilin özünəməxsus çətinlikləri olmuşdur. Ancaq bu çətinliklərə rəğmən qəzetimiz öz fəaliyyətini davam etdirmişdir. Qəzet aid olduğu ölkənin, rayonun həyatını əks etdirir, fakt və rəqəmləri, hadisələri olduğu kimi verir, insanların və onların həyati mübarizəsini doğru və dolğun şəkildə əks etdirir.

“Qəbələ”də məhz adət və ənənələri davam etdirir, öz sələfi olan “Əkinçi”nin ideya və məqsədlərini həyata keçirir

Bir sözlə, “Qəbələ” rayonumuzun bu günkü həyat salnaməsini sabah üçün tarixləşdirir və sənəd kimi gələcək nəsillərə ərməğan edir.

# Mətbuat sabahın tarixidir

***Mətbuat - dövri çıxan qəzet, jurnal və s. ümumi adıdır. Mətbu orqanları tarixin ən qiymətli sənədləri, gələcək nəsillərin fakt və rəqəmlər toplusudur. Əgər yaşanılan və sabahki kecmişə çevrilən hər şey muzeylərdə saxlanılırsa, mətbu orqanları bir növ tarixin ”sənədli muzeyləridir” ki, gələcək nəsillər üçün saralmış hər bir kağız parçası üzərində əks olunan fakt və hadisələrə görə qiymətlidir.***

***Qəzetlər gündəlik,həmçinin əvvəlki (ötən)xəbərləri və maraqlı faktları təqdim və dərc edən bir nəşr vasitəsidir. Qəzetlər ictimai fikrin formalaşmasında və baş verən hadisələr barəsində insanların məlumatlandırılmasında mühim rol oynayırlar. Hansı əsrdə yaşamasındam asılı olmayaraq qəzetlər təbliğat növü, kütləvi informasiya mənbəyi kimi öz əhəmiyyətini itirmir. İnformasiya və texnologiya əsri, kompyuter texnologiyasının nə qədər yüksəliş dövründə yaşasaq da, tarixin saxlanılması baxımından mətbu orqanlarının özünəməxsus əhəmiyyəti vardır.***

***“Qəbələ” qəzeti də öz tarixi yolunu davam etdirir. Ölkə həyatını qismən əks etdirən xəbərlərlə bahəm, ən ümdəsi qədim Qəbələmizin həyat salnaməsini əks etdirir.***

***Dövlət siyasətinin təbliği, respublikamızın daxili və xarici siyasətinin, xalqımızın öz milli xüsusiyyətlərinə bağlılığı və müasir həyat ənənələrinin doğru və düzgün təbliği “Qəbələ” qəzetinin başlıca məram və məqsədidir. Qəzetin əməkdaşları milli mətbuatımızın yaranmasının 150 illiyini böyük sevinc və maraqla qeyd edirlər. Qəzetin kollektivi və onların ürək sözləri ilə oxucularımızı da tanış edirik.***

**Azad Məmmədov - redaktor.**



*Qəbələ rayon Daşca kəndində ziyalı ailəsində doğulmuşdur. Bakı Dövlət Universitetinin tarix fakültəsin bitirmişdir. Əmək fəaliyyəti dövründə müxtəlif idarəetmə vəzifələrində işləmişdir. 2020-ci ilin iyun ayından etibaren “Qəbələ”qəzetinin redaktorudur.*

- "Qəbələ" qəzeti "Əkinçi" ənənələrini davam etdirən mətbu orqanıdır. Artıq 92 ildir ki, qəzet qədim Qəbələmizin həyatını əks etdirərək sabahkı nəsil üçün bir tarixi sənəd kimi yaşadır. Bu 92 ilin cəmi 5 ilini "Qəbələ" qəzetinə redaktor olsam da, qəzetin hər bir nömrəsini və bu nömrələrdə əks olunan rayon həyatı - keçmişi və bu gününü müxtəlif yazılarda məsuliyyət hissini yaşamış və yaşayıram. Qəzetimizin başlıca mövzusu dövlət siyasətini əks etdirməkdir. Vətənpərvərlik, milli-mənəvi zənginlik, müxtəlif sahələrdə işləyən insanların əməyinin qiymətləndirilməsi qəzet materiallarında öz əksini tapır. Qəzet bəzi hallarda ayda iki dəfə nəşr olunsa da, son dövrlər aylıq xəbərləri əks etdirərək ayda bir dəfə nəşr olunur. Qəzetin nəşr olunmasına Qəbələ Rayon İcra Hakimiyyəti həmişə dəstək olmuşdur. Qəzetimiz respublikamızda nəşr olunan rayon qəzetləri arasında öz maraq dairəsinə görə öndə olan mətbuatlardan biri sayılır. Çalışırıq ki, qədim Qəbələmizin bu gününü sabahkı nəsil üçün doğru-düzgün, zəngin faktlarla, dolğun yazı materialları ilə yazıb tarixləşdirək. Axı büğünkü hər bir material öz faktları ilə sabahkı tarixdir.

**Bibixanım İsayeva - məsul katib.**



*Qəbələnin Vəndam qəsəbəsində ziyalı ailəsində doğulmuşdur. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Qiyabi təhsil aldığı üçün birinci kursdan - 1980-cı ildən "Qəbələ" qəzetində çalışmışdır. Qəzetin mətbəəsində mürəttib, korrektor, ədəbi işçi, məktublar şöbəsinin müdiri, məsul katib vəzifələrində çalışmışdır. 2007 - 2020-ci illərdə Bakı şəhərində başqa mətbu orqanında çalışmış, 2020-ci ilin iyun ayından etibarən yenidən doğma kollektivi ilə birgə çalışır.*

- "Qəbələ" mənim doğma qəzetimdir. Başqa mətbuat orqanlarında çalışsam da burada ilk əmək fəaliyyətinə başladığım üçün bu qəzet mənim üçün müsbət mənada çox maraqlı və dəyərlidir. Həm iş kollektivimə hörmətim, həm peşəmə maraq və sevgim məni yenidən "Qəbələ"mə "bağladı". Vətənpərvərlik, milli-mənəvi zənginlik mövzusu yaradıcılığımın əsasıdır. "Əkinçi" ideyalarını yaşatmaq qəzetimizin demək olar ki, iş prinsipidir. Həyatı - Qəbələmizin tarixini, bu gününü öz yazılarımda əks etdirərək oxucularımıza çatdırmaq və sabahkı tarixi sənəd kimi qəzetimizi yaşatmaq mənim əsas məqsədimdir. Yaşadığım həyatın ən gözəl və qiymətli günü - Milli mətbuatımızın yaranması günüdür. Axı bu mənim peşə bayramımın simvoludur .

**Səhrab Umuyev - fotoqraf.**



*Qəbələnin Vəndam qəsəbəsində doğulmuşdur. Artıq 55 ildir ki, "Qəbələ" qəzetində çalışır. Onun işlədiyi dövrdə şəkillər "FED", "Kiyev", "Zenit" foto aparatları ilə çəkilirdi .Bu şəkillərin hasilə gətirilməsinin məsuliyyəti və çətinlikləri çox idi. 2001-ci ildən rəngli şəkillər çəkilmişdir. 2009-cu ildən isə rəqəmsal aparatlarla şəkillər çəkilir. Bu isə fotoqrafların işini tam mənada yüngülləşdirmişdir.*

- "Qəbələ" yarım əsrdən çoxdur ki, mənim doğma "məkanım"-dır. Çəkdiyim hər bir fotoşəkil rayonumuzun işgüzarlığını və rayon əhalisinin yaşayış tərzini, təbiətin gözəlliyini əks etdirir. Bu isə peşəmə hörmətimi daha da artırır. "Qəbələ"nin səhifələrində fotoşəkillər öz aydınlığı ilə əks olunduqca, bu peşəni seçməyimə sevinirəm.

**Rais Rəşidov - qəzetin kompüter-dizayneri.**



*Qəbələnin Xırxatala kəndində doğulmuşdur. Mütaliəçidir. Azərbaycan dilinin yazılış qaydalarının mükəmməl bilicisidir. Qəzet materiallarının ilk oxucusudur. 1978-ci ildən "Qəbələ" qəzeti redaksiyasında çalışır.*

- "Qəbələ" qəzeti mənim 47 illik ömrümün tarixi şahididir. Əvvəllər linotip (sətirtökən) maşınında işləmişəm. Linotip maşınları iş prinsipinə görə "ağıllı maşın" adlanırdı. Bu maşınla işləməyin maraqlı tərəfi olsa da, çətinlikləri də çox olmuşdur. 2001-ci ildən etibarən qəzet materialları kompüterdə yığılmağa başladı. Bu bizim əl əməyimizi yüngülləşdirsə də, məsuliyyət hissi daha çox idi.

Artıq illərdir ki, öz işimin peşəkarı kimi çalışıram. Doğrudur, bu ömrümün illərini öz işimə sərf etməklə əldə olunsa da, həmişə öz işimə məsuliyyət və sevgilə yanaşıram. "Qəbələ"mdə hər bir materialın doğru-düzgün yerləşdirilməsinə, orfoqrafik səhvlərə belə yol verilməməsinə çalışıram.

**İlahə Rəhimova - ədəbi işçi.**



*Qəbələnin Vəndam qəsəbəsində doğulmuşdur. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. 2021-ci ildən "Qəbələ" qəzetində jurnalist, ədəbi işçi kimi fəaliyyət göstərir.*

- "Qəbələ"yə gəldiyim gündən qayğı əhatəsindəyəm. Praktika peşənin öyrənilməsində əsasdır. Öz peşəmə sevgim aldığım təhsillə bağlı təcrübə qazandıqca daha da artır. "Qəbələ" qəzeti həm iş kollektivi, həm də iş prinsipi ilə mənim həyat yoluma müsbət təsir göstərir. Çalışıram ki, qəzetin fəaliyyətində mənim də adım yetərincə hallansın. "Qəbələ" qəzetinin oxucularının sayının daha da artması mənim ən başlıca arzumdur. Axı bu yazılarımızın maraq dairəsini artırar, zənginləşdirər.

**Qəzet həyatın güzgüsü sayılardı bir zamanlar. Çox istərdik ki, qəzet tarixin salnaməsi olduğu kimi, həm də yenə də həyatın güzgüsünə çevrilsin. Zarisovkalar, reportajlar, felyetonlar, oçerklər, müsahibələr, məqalə və xəbərlər öz aktuallığını artırsınlar. Milli mətbuatı yaşatmaq axı hər bir vətəndaşın müqəddəs borcudur. Çünki mətbuat sabahkı silinməz tarixdir!**

*Səhifənin materiallarını əməkdaşımız Bibixanım İSAYEVA hazırlamışdır.*